


# Lider qətiyyəti

***Azərbaycan Prezidentinin son 18 ildəki titanik siyasi fəaliyyəti, əksər dövlət başçıları üçün əlçatmaz görünən diplomatik uğurları, çoxsaylı havadarlarına güvənən işğalçı qonşuya diz çökdürməsi, otuz il düşmən tapdağında qalan ərazilərimizin işğaldan azad edilməsi və möhtəşəm bərpa-quruculuq işlərinə başlanılması müasir tariximizin qızıl səhifələridir. Ancaq, çox təəssüf ki, beynəlxalq aləmdəki ikili standart yürüdənlər hələ də bu möhtəşəm reallıqları qəbul edə bilmirlər.***

Bir neçə gün əvvəl xaricdəki boşboğaz "politoloq"lardan biri "Azərbaycan öz torpaqlarını Ermənistanın zəifləməsindən sui-istifadə edərək geri qaytara bildi" kimi cəfəng fikir söyləmişdi. Guya, Ermənistanda əvvəlki prezidentlər hakimiyyətdə olsaydı, biz torpaqları qaytara bilməzdik.

***(ardı 5-ci səhifədə)***

# Lider qətiyyəti




**(əvvəli 1-ci səhifədə)**

Çox təəssüf ki, ölkə daxilində də həmin ağıldankəmə züy tutan gerizəkalılar tapılmışdı. Bu adamlar anlaya bilmirlər ki, Ermənistanın zəifləməsi dedikləri həmin proses bilavasitə Azərbaycan Prezidentinin hücum diplomatiyasının, işğalçı ölkəni regionun bütün iqtisadi layihələrindən kənar qoymasının, beynəlxalq tədbirlərin hamısında İrəvanın ifşasına nail olmasının nəticəsidir. Birmənalı şəkildə deyirik: Azərbaycanın son uğurlarının hamısı Prezident İlham Əliyevin qətiyyətinin təntənəsidir.

## İlham Əliyevdən Serj Sarkisyana "tərs şillə"

Prezident İlham Əliyev "Ermənistanın hələ zəifləmədiyi" dövrdə – 2014-cü il aprelin 26-da Praqada Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Proqramının 5 illiyinə həsr olunmuş sammitdəki çıxışı zamanı Ermənistan prezidenti Serj Sarkisyanı "beş qəpiklik" eləmişdi.

Bunu qardaş Türkiyənin bütün mətbuat vasitələri yazırdılar. "Sabah" qəzetində verilmiş "Əliyevdən Ermənistana şillə kimi cavab" sərlövhəli məqalədə dövlət başçımızın çıxışından sitat gətirilirdi: "Bu gün, təəssüf ki, Ermənistan prezidenti burada fürsətdən istifadə edərək Türkiyəyə yenidən hücum edir. Bunu etmək asandır, çünki bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam və Türkiyə-Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm...".

## Ermənistanın faşizmi dirçəltmək cəhdinin ifşası

2019-cu il oktyabrın 11-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxış edən Azərbaycan Prezidenti qeyd etdi ki, BMT başda olmaqla bütün beynəlxalq təşkilatlar və mütərəqqi dünyanın ən üzdə olan simaları bəşər övladının daha da firavan yaşaması, əsas insan hüquq və azadlıqlarının daha yüksək səviyyədə qorunması üçün mümkün olan addımların hamısını atırlar. Ermənistanın Paşinyandan əvvəlki rəhbərləri isə XXI əsrdə faşizmi dirçəltməyə cəhd ediblər: "Biz dövlət başçıları faşistlərin qəhrəman kimi qələmə verilməsinin əleyhinə dəfələrlə çıxış etmişik. Təəssüf ki, MDB məkanında, xüsusən Ermənistanda belə hallar baş verir. Orada əvvəlki hakimiyyət Yerevanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib. 2019-cu ilin mayında Rusiya Xarici İşlər Nazirliyi "Nasizmin qəhrəmanlıq kimi qələmə verilməsi, neonasizmin yayılması və irqçiliyin, irqi ayrı-seçkiliyin, ksenofobiyanın və onlarla bağlı dözümsüzlüyün müasir formalarının yayılmasına şərait yaradan praktikanın digər növləri ilə bağlı vəziyyət haqqında" məruzə təqdim edib. Həmin məruzədə deyilir: "Ermənistanın keçmiş hakim respublikaçılar partiyası millətçi təmayüllü, Üçüncü Reyx ilə əməkdaşlıq etməsi haqqında məlumat olan, birmənalı siyasi mövqeyi olmayan Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atıb". Bu, Rusiya Xarici İşlər Nazirliyinin mövqeyidir.

## Müstəqil siyasət yürüdürük

Azərbaycan Prezidenti hələ 44 günlük müharibədən xeyli əvvəl sübut etmişdi ki, biz müstəqil siyasət yeridirik və heç bir qüvvə bizi öz yolumuzdan döndərə bilməz.

Bu fakt ötən il yanvarın 22-də bütün dünyanın qulağında əks-səda vermişdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davos Dünya İqtisadi Forumu çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda keçirilən panel iclasında aparıcının "Avrasiyada indi böyük qüvvələr yerləşib, bir tərəfdən Rusiya, o biri tərəfdən Çin. Azərbaycanın Prezidenti kimi Siz birinci növbədə kimə zəng edərsiniz – Moskvaya, yoxsa Pekinə?" – sualını konkret şəkildə və qətiyyətlə cavablandırmışdı: "Bakıya".

Dövlət başçımız əlavə etmişdi: "Bəli, bizim qonşularımıza münasibətdə siyasətimiz mehribandır, lakin, eyni zamanda, milli maraqlarımız həmişə birinci yerdədir. Buna görə də müstəqillik illəri ərzində əldə etdiyimiz bütün nailiyyətlər xalqımızın müstəqilliyimizə sadiq olması-na, siyasi və iqtisadi sahələrdə çox ciddi islahatları həyata keçirdiyimizə görə əldə olunmuşdur".

## Azərbaycan ilk növbədə öz maraqlarını müdafiə edir...

Dövlət başçımız bu bəyanatı ötən il sentyabrın 27-də – Ermənistan siyasi-hərbi rəhbərliyinin yeni ərazilər işğal etmək üçün başladığı hərbi əməliyyatlara cavab olaraq verdiyi "İrəli!" –komandasının səbəblərini dilə gətirərkən demişdir.

Həmin gün xalqa müraciət edən Prezident demişdir: "Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

## Onu ... diz çökdürdük

Azərbaycan Prezidenti Ermənistanın kapitulyasiya sənədini imzalamasından sonra – ötən il noyabrın 10-da xalqa ünvanladığı müraciətdə deyirdi: "Artıq Azərbaycan xalqının səbri tükənmişdi və mən Ermənistan baş nazirinə son görüşlərdə demişdim ki, siz odla oynamayın, Azərbaycan xalqının səbri ilə oynamayın. Siz Azərbaycan xalqını tanımırsınız, siz tanıyacaqsınız bizi, amma gec olacaq. Düz yola gəlin, çıxın bu torpaqlardan, bu torpaqlar sizə məxsus deyil. Amma nə etdilər? Orada qanunsuz məskunlaşma aparmaq üçün beynəlxalq hüququ, beynəlxalq konvensiyaları, o cümlədən Cenevrə konvensiyalarını kobudcasına pozaraq, nümayişkaranə şəkildə xaricdən erməniləri gətirib özü də məhz Şuşaya ki, bizi incitsin. Məhz Şuşada o dəstə başçısı hansı ki, indi deşik axtarır gizlənməyə, xunta başçısı özünə andiçmə mərasimi keçirmişdir və Ermənistan baş naziri gedib orada iştirak edib. Bu, bizə sataşmaq deyil-dimi? Bunun hesabını sizdən soruşan olmayacaqdımı?! Hesabını soruşduq, diz çökdürdük, diz üstə qoyduq! Onunbunun ətəyindən yapışıb bu 40 gündən çox bir müddətdə adam qalmayıb ki, zəhləsini tökməsin, yardım istəməsin, özünü alçaltmasın. Biz alçaltmışıq onu, əcəb də etmişik".

## Azərbaycan Ordusu öz tarixi missiyasını yerinə yetirdi

Azərbaycan paytaxtı öz tarixi boyu çox paradlar görsə də, 2020-ci il dekabrın 10-da Azadlıq meydanında keçirilmiş Zəfər paradı bənzərsiz idi. Çünki həmin tədbirdə Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan, eyni zamanda, Azərbaycan hərbçiləri ilə birlikdə türk əsgərləri də iştirak edirdilər.

Dövlət başçımız həmin paradda xatırlatdı ki, Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu, demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın "dəmir yumruğu" onların belini qıracaq.

## İndi isə yeni dövr başlanıb – quruculuq dövrü

Prezident işğaldan azad edilmiş istənilən kənd, qəsəbə və şəhərlərimizin əvvəlkindən qat-qat yüksək səviyyədə bərpa edilməsi üçün lazım olan bütün addımları atır. Ekspertlərin fikrincə, işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinin hamısı bizim üçün əhəmiyyətli olsa da, "Qarabağın hava qapısı" adlandırılan Füzuli Beynəlxalq Hava Limanı daha böyük uğur kimi qəbul edilir. İstənilən tip hava gəmisini qəbul etmək imkanları olan bu hava limanının uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib.

## "Türk Dünyasının Ali Ordenini aldığım üçün böyük qürur duyuram"

Azərbaycan Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının noyabrın 12-də İstanbulda keçirilən VIII Zirvə görüşündə "Türk Dünyasının Ali Ordeni" ilə təltif olunub. Tədbirdə çıxış edən dövlət başçımız deyib: "Bu ordenin mənə verilməsi Qarabağın qurtuluş savaşının sonunda baş tutdu. Türk dövlətlərinin bunu bu şəkildə qəbul etməsinə və məni bu ordenə layiq gördüklərinə görə öz adıma və bütün Azərbaycan xalqı adına böyük qürur hissi keçirirəm. Bu, Azərbaycan xalqına verilmiş bir ordendir. Çünki İkinci Qarabağ müharibəsində həqiqətən, çox mühüm səylər göstərdik. Bu ordeni sevgili qardaşım Rəcəb Tayyib Ərdoğandan almağım xüsusilə önəmlidir. Müharibənin ilk günündən son gününə qədər onun bizə göstərdiyi dəstəyi hər an hiss etdik. Həqiqətən də, bu dəstək bizə güc verdi, bizi ruhlandırdı, çünki əziz qardaşım Azərbaycanın dünyada tək olmadığını və Türkiyənin hər zaman Azərbaycanın yanında olacağını göstərdi. Biz böyük bir zəfərlə vəzifəmizi yerinə yetirə bildik".

Biz məmnunuq ki, Azərbaycan xalqı və dostlarımız sadaladığımız bütün faktların hamısını lider qətiyyətinin təntənəsi kimi qəbul edir. Şadıq ki, biz də bu reallıqların şahidiyik.

*İttifaq MİRZƏBƏYLİ,*
*"Xalq qəzeti"*